

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 21 (21.173)

*31 yanvar 2015-ci il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Naxçıvan şəhərinin sosial-iqtisadi inkişafı üzrə proqram uğurla icra edilir

*Proqramın qəbul olunmasından ötən bir il ərzində həyata keçirilən tədbirlər belə deməyə əsas verir*

*Qədim diyarımızın tarixinə "Muxtariyyət ili" kimi yazılan 2014-cü ildə muxtar respublikada həyatın bütün sahələrində yüksək inkişaf tempi təmin olunub, tikinti-quruculuq işləri geniş həcmdə davam etdirilib. Bu tədbirlərdən paytaxt şəhərimiz Naxçıvana da xeyli pay düşüb. Müasir arxitektura üslubunda həyata vəsiqə alan müxtəliftəyinatlı tikililər şəhərin hüsnünü daha da gözəlləşdirib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 31 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2014-2015-ci illərdə Naxçıvan şəhərinin sosial-iqtisadi inkişafı üzrə Proqram" bu prosesdə mühüm əhəmiyyət kəsb edən dövlət sənədi kimi Naxçıvan şəhərinin müasirliyə qovuşmasında başlıca amil olub.*

Naxçıvan Şəhər İcra Hakimiyyətindən aldığımız məlumata görə, 2014-cü ildə proqrama əsasən həyata keçirilən quruculuq tədbirləri müxtəlif sahələri əhatə edib. Bu dövrdə inzibati və ictimai yaşayış binalarının tikintisi və təmiri davam etdirilib, istilik, su təchizatı və kanalizasiya, yol təsərrüfatı və nəqliyyat sahələrində xeyli iş görülüb, yaşıllaşdırma və abadlıq tədbirləri aparılıb, təhsil, səhiyyə, mədəniyyət müəssisələri üçün yeni binalar inşa olunub.

Bəhs olunan dövrdə "Naxçıvan" Universitetində tədris, inzibati və yataqxana binalarından ibarət yeni kompleks inşa olunub. Proqram çərçivəsində Naxçıvan Dövlət Universitetinin "baytarlıq" ixtisası üçün yeni bina tikilib və universitetin poliklinika binasında yenidənqurma işləri aparılıb. Naxçıvan Muxtar Respublika Xəstəxanasının yenidən qurulması, Yoluxucu Xəstəliklər Mərkəzi üçün yeni binanın inşası davam etdirilib.

Muxtar respublikada mədəniyyət və turizmin inkişafı istiqamətində müxtəlif layihələr həyata keçirilir, milli-mədəni irsimizin qorunması və təbliği sahəsində uğurlu nəticələr qazanılır. Naxçıvan şəhərinin inkişaf proqramında bu məsələ də nəzərə alınıb. Belə ki, "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində tikinti-bərpa işləri, Bayraq Meydanı və Muzeyinin inşası başa çatdırılıb. Proqrama əsasən, şəhərin Kalbalıxan küçəsində Xatirə Muzeyinin tikintisi yekunlaşdırılıb.

Naxçıvan şəhərinin Əliabad qəsəbəsi yenidən qurulub, qəsəbədəki ictimai-yaşayış binalarında əsaslı təmir işləri aparılıb, qəsəbəarası yollara qara örtük salınıb. Əcəmi Naxçıvani küçəsindəki 7 ictimai yaşayış binasının dam örtüyü, fasadı, qapı və pəncərələri dəyişdirilib. Qaraçuq kəndində kənd və xidmət mərkəzlərinin, həkim ambulatoriyasının, 9 nömrəli və Naxçıvan şəhər 11 nömrəli tam orta məktəblərin binalarının tikintisi və ya yenidən qurulması başa çatdırılaraq istifadəyə verilib. Bu ünvanlarda müasir iş şəraiti yaradılıb. Qaraçuqda Uşaq musiqi məktəbinin binası yenidən qurulub.

Ötən il Naxçıvan şəhərində Gənclər Mərkəzinin istifadəyə verilməsi gənclik tərəfindən yüksək dəyərləndirilib. Dövlət gənclər siyasətinin daha bir təzahürü olan bu mərkəz gənclərin müxtəlifsəpkili layihələrlə çıxışına geniş imkanlar açıb, onların elmi-intellektual potensialının inkişafına, eləcə də asudə vaxtlarının səmərəli təşkilinə və dünyagörüşlərinin formalaşmasına şərait yaradıb.

Quruculuq tədbirləri yol infrastrukturunu da əhatə edib. Naxçıvan şəhərinin İslam Səfərli, Əziz Əliyev, "İstiqlal" küçələrindəki, 20, 20A, 22, 35-ci məhəllələrdəki yollar müasir standartlar səviyyəsində təmir olunub. Qaraçuq kəndinə gedən yolda da əsaslı təmir işləri başa çatdırılıb.

Naxçıvan şəhərində su-kanalizasiya qurğularının tikintisi davam etdirilib, ictimai yaşayış binalarında istilik, su-kanalizasiya sistemlərinin yenidən qurulması yekunlaşdırılıb. Naxçıvan şəhərinin kəndləri də daxil olmaqla, 28 kəhriz mövcuddur. Ehtiyac nəzərə alınaraq Ağamalı kəhrizində təmir işləri aparılıb.

Paytaxt şəhərimizin inkişafı istiqamətində həyata keçirilən tədbirlərin mərkəzində insan amili dayanır. Əhalinin rahatlığına xidmət edən müasir infrastrukturun yaradılması da məhz bu məqsədə xidmət edir. Xüsusilə son illər gənclərin mənzil-kommunal şəraitinin yaxşılaşdırılmasına hesablanmış kompleks tədbirlər bu baxımdan mühüm əhəmiyyət daşıyır. Proqrama əsasən, ötən il Əziz Əliyev küçəsindəki 43 nömrəli 20, 45 nömrəli 30, həmçinin 47 nömrəli 30 mənzildən ibarət ictimai yaşayış binalarının, Atatürk küçəsindəki 5 nömrəli, Kazım Talıblı küçəsində 18 nömrəli binaların istifadəyə verilməsi sakinlər tərəfindən razılıqla qarşılanıb.

Şəhərin Əziz Əliyev küçəsində, "Gənclər şəhərciyi"ndə inşa olunan çoxmərtəbəli 4 bina gənclərin mənzil-məişət şəraitini yaxşılaşdırmaqla bərabər, yerləşdikləri əraziyə də müasir görkəm verəcək.

Proqramda Naxçıvan şəhərində nəqliyyatın sıx olduğu yerlərdə piyada keçidlərinin yaradılması da nəzərdə tutulub. Bu istiqamətdə həyata keçirilən tədbirlər sırasında Heydər Əliyev prospektində və Əliabad qəsəbəsində 1, "İstiqlal" küçəsində 2 yeni dayanacağın quraşdırılmasını qeyd etmək olar.

İcra Hakimiyyətindən aldığımız məlumatda o da bildirilir ki, cari ilin ilk günlərindən proqramda nəzərdə tutulan quruculuq tədbirlərinin həyata keçirilməsi davam etdirilir. Artıq Kazım Talıblı küçəsində 20 nömrəli yaşayış binası istifadəyə verilib. "Atabəylər" məhəlləsindəki 6 nömrəli binada da sürətli iş ahəngi təmin olunub.

Muxtar respublikada təmin olunmuş sosial-iqtisadi inkişaf insanların maddi rifah halının yaxşılaşdırılmasına öz təsirini göstərib. Bunu şəxsi minik avtomobillərinin sayının artmasında da görmək olar. Təbii ki, bu proses nəqliyyatın və sərnişinlərin təhlükəsiz hərəkətinə təsirsiz ötüşmür. Bunu nəzərə alaraq, ötən ildən Nizami küçəsində inşasına başlanan yerüstü piyada keçidində son tamamlama işləri aparılır, Əziz Əliyev küçəsində yeraltı keçidin inşasına başlanılıb. İslam Səfərli küçəsində isə avtomobil parkının tikintisi davam etdirilir.

Qeyd olunan dövrdə Naxçıvançay vadisində Əyləncə və İstirahət Mərkəzi istifadəyə verilib, hazırda parkın tikintisi aparılır.

İnşası davam etdirilən obyektlərdən biri də Naxçıvan şəhərinin Atatürk küçəsində tikilən Uşaq incəsənət məktəbi üçün yeni binadır. Burada tikinti işlərinin böyük hissəsi başa çatdırılıb. Hazırda binadaxili işlər davam etdirilir, binanın fasadı üzlənir.

Proqrama əsasən inşa olunan müasir hamam kompleksinin tikintisində son tamamlama işləri görülür.

İcra Hakimiyyətindən bildirdilər ki, proqramda nəzərdə tutulan digər tədbirlərin vaxtında başa çatdırılması üçün bütün qüvvələr səfərbərliyə alınacaq.

Bütün bunlar onu deməyə əsas verir ki, proqramın uğurlu icrası nəticəsində muxtar respublikanın paytaxtındakı müasir ünvanların sayı daha da artacaq.

✍ **Muxtar MƏMMƏDOV**

## "Ən fəal işəgötürən" nominasiyası üzrə müsabiqənin qaliblərinə mükafatlar təqdim olunub

***Yanvarın 30-da Naxçıvan Biznes Mərkəzində Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi, İqtisadiyyat və Sənaye nazirliklərinin və Sahibkarlar Konfederasiyasının təşkilatçılığı ilə keçirilən "Ən fəal işəgötürən" nominasiyası üzrə müsabiqənin qaliblərinə mükafatların verilməsi ilə bağlı tədbir keçirilib.***

Tədbirdə Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat və Sənaye naziri Famil Seyidov, Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Cavid Səfərov və Sahibkarlar Konfederasiyasının nümayəndəsi Azər Cəfərov çıxış ediblər. Bildirilib ki, muxtar respublikada iqtisadiyyatın aparıcı qüvvəsi sayılan sahibkarlığın inkişafı istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. 2014-cü ildə muxtar respublikada 22 hüquqi və 2796 fiziki şəxs qeydiyyata alınıb. Sahibkarlığın inkişafı, həmçinin yeni iş yerlərinin yaradılması məqsədilə dövlət maliyyə dəstəyi davam etdirilib. Belə ki, fərdi sahibkarlığın inkişafına, eləcə də yeni istehsal sahələrinin yaradılmasına və ya genişləndirilməsinə 33 milyon 548 min 500 manat kredit sərf olunub. Bəhs olunan dövrdə muxtar respublikada 47 istehsal və xidmət sahəsinin yaradılması nəticəsində 3523 yeni iş yeri açılıb ki, bunun da 3422-ni, yaxud 97 faizini daimi iş yerləri təşkil edib.

Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikasında dinamik inkişafın ən mühüm göstəricilərindən biri də məşğulluğun inkişaf səviyyəsidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 18 dekabr tarixli Sərəncamı ilə təsdiq olunan "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrası işaxtaranların səmərəli məşğulluğunun təmin edilməsinə, peşə hazırlığının əmək bazarının tələblərinə uyğunlaşdırılmasına, işsiz vətəndaşların sosial müdafiəsinin gücləndirilməsinə əlverişli şərait yaradıb. 2014-cü il ərzində 2727 nəfər məşğulluq xidməti orqanlarında qeydiyyatda olan iş yerlərinə, sosial müdafiəyə ehtiyacı olan 125 nəfər kvota yerlərinə göndərilib, 327 nəfər sosial əhəmiyyətli haqqıödənilən ictimai işlərə cəlb edilib. İşaxtaranların məşğulluq tədbirləri barədə məlumat əldə etmək imkanlarını artırmaq məqsədilə internet saytı hazırlanıb. İşaxtaran vətəndaşların işlə təmin olunması ilə yanaşı, onların əmək hüquqlarının müdafiəsi istiqamətində də tədbirlər həyata keçirilib.

Vurğulanıb ki, dövlət proqramında nəzərdə tutulan işəgötürənlərin həvəsləndirilməsi, əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsində onların fəallığının artırılması məqsədilə "Ən fəal işəgötürən" nominasiyası üzrə müsabiqənin keçirilməsi və qaliblərin mükafatlandırılması qarşıya qoyulmuş məqsədə çatmaqda xüsusi əhəmiyyətə malikdir. "Ən fəal işəgötürən" nominasiyası üzrə müsabiqənin qaliblərini Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin müvafiq əmri ilə yaradılan Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi, İqtisadiyyat və Sənaye nazirliklərinin və Sahibkarlar Konfederasiyasının nümayəndələrindən ibarət mükafat komissiyası müəyyən edib.



Sonra komissiyanın sədri, Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidmətinin rəisi Sevindik Vəliyev tərəfindən müsabiqənin qalibləri elan olunub. Bildirilib ki, 2014-cü ilin yekunlarına görə, özəl sektorda fəaliyyət göstərən, yeni istehsal sahəsi yaratmaqla işaxtaranların daimi işlə təmin olunmasında iştirak edən hüquqi və fiziki şəxslərin fəaliyyətləri müqayisəli şəkildə qiymətləndirilərək Kəngərli rayonunun Böyükdüz kəndində fəaliyyət göstərən, sahibkar Elçin Bağırova məxsus "Müxtəlif növ şitillərin, giləmeyvə, göbələk, tərəvəz məhsullarının yetişdirilməsi üçün istixana kompleksi" müəssisəsi birinci, Naxçıvan şəhərində fəaliyyət göstərən "Zümrüd" Kiçik Müəssisəsi ikinci, Kəngərli rayonunun Xok kəndində fəaliyyət göstərən, sahibkar Rəşid Cəfərliyə məxsus unlu-qənnadı məmulatlarının istehsalı və satışı müəssisəsi isə üçüncü yerə layiq görülüb.

Sonra qaliblərə diplom və qiymətli hədiyyələr təqdim olunub.

Müsabiqənin qalibi olan sahibkarlar çıxış edərək fəaliyyətlərinə yaradılan şəraitə və göstərilən diqqətə görə minnətdarlıqlarını bildirib, gələcəkdə də muxtar respublika iqtisadiyyatının davamlı inkişafında, əhalinin səmərəli məşğulluğunun təmin olunmasında fəallıq nümayiş etdirəcəklərini qeyd ediblər.

✍ **Səbuhi HƏSƏNOV**

## Muxtar respublikada növbəti bələdiyyə seçkiləri mütəşəkkil qaydada keçirilmişdir

Azərbaycan Respublikasında seçki sisteminin inkişafı istiqamətində mühüm işlər görülmüş, seçkilərin demokratik şəkildə keçirilməsinə xidmət edən qanunvericilik bazası yaradılmışdır. 2014-cü il dekabrın 23-də keçirilən bələdiyyə seçkiləri də ölkəmiz üçün növbəti uğurlu addım oldu.

Bələdiyyə seçkilərində muxtar respublikanın ərazisini əhatə edən 7 seçki dairəsi üzrə 2179 nəfər öz namizədliyini irəli sürmək üçün müvafiq dairə seçki komissiyalarına müraciət etmiş və onlardan 2149 nəfərin namizədliyi qeydə alınmışdır. Seçki günü seçki dairələri üzrə 266 min 430 nəfər seçicidən 110 min 309 nəfəri, yəni seçicilərin 41,4 faizi səsvermədə iştirak etmişdir. Seçkilərdə muxtar respublika üzrə 171 bələdiyyəyə 1453 nəfər üzv seçilmişdir. Seçilmiş bələdiyyə üzvlərinin 1074-ü və ya 74 faizi Yeni Azərbaycan Partiyasının, 222-si və ya 15,4 faizi bitərəflər, 65-i və ya 4,5 faizi BAXCP-nin, 59-u və ya 4 faizi BQP-nin, 28-i və ya 1,9 faizi ASRP-nin, 3-ü və ya 0,2 faizi AVP-nin, 1-i VHP-nin, 1 nəfər isə ÜP-nin üzvlərindən ibarətdir. Seçilmiş bələdiyyə üzvlərindən 475 nəfəri və ya 32,7 faizi gənclər, 294 nəfəri və ya 20,2 faizi qadınlardır. Bələdiyyə üzvlərinin 715 nəfəri və ya 49 faizi ali və ya orta ixtisas təhsillidir.

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2015-ci il 12 yanvar tarixli qərarı ilə bələdiyyələrə seçilmiş üzvlərin adlı siyahısı təsdiq edilmiş və bələdiyyə üzvlərinin siyahısı rəsmi mətbuatda dərc edilmişdir. Bundan sonra qanunvericiliyə uyğun olaraq, bələdiyyə sədrləri və sədr müavinləri seçilmişdir. Bələdiyyə sədri seçilmiş 171 nəfərdən 121-i və ya 70 faizi ali və ya orta ixtisas təhsillidir ki, onlardan da 14-ü qadınlardır.

Azərbaycanda növbəti bələdiyyə seçkiləri də şəffaf, ədalətli və heç bir qanun pozuntusu olmadan keçirildi. Bütün bunlar da ölkəmizdə, eləcə də muxtar respublikada demokratik dəyərlərə böyük əhəmiyyət verildiyini və seçkilərdə hər bir vətəndaş üçün sərbəst şəkildə seçib-seçilmək hüququnun yaradılmasından xəbər verir.

***Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyası***

### 2 fevral Gənclər Günüdür

# Muxtar respublikada gənclər siyasəti uğurla həyata keçirilir

***İntellektli, vətənpərvər və geniş dünyagörüşünə malik gənc nəslin yetişdirilməsi hər bir ölkə üçün başlıca vəzifədir. Buna görə də ulu öndər Heydər Əliyev ölkəmizə rəhbərliyi dövründə sağlam düşüncəli gənc nəslin yetişdirilməsini, gənclərin ölkənin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında iştirakının təmin edilməsini diqqət mərkəzində saxlamışdır. Ümummilli liderin təşəbbüsü ilə bu sahədə ardıcıl tədbirlər həyata keçirilmiş, 1994-cü il iyulun 26-da Gənclər və İdman Nazirliyi yaradılmış, 1996-cı il fevralın 2-də müstəqil Azərbaycan gənclərinin ilk forumu keçirilmişdir. Forum keçirildikdən 1 il sonra – 1997-ci il fevralın 1-də ulu öndər Heydər Əliyevin Sərəncamı ilə fevralın 2-si Azərbaycanda Gənclər Günü elan edilmişdir.***


*Naxçıvan şəhərində Gənclər Mərkəzi*

Müstəqillik dövründə Azərbaycanda gənclərlə iş sahəsində həyata keçirilən tədbirlər silsilə xarakter almış, gənclər sahəsində dövlət siyasətinin həyata keçirilməsi məqsədilə zəruri qanunvericilik bazası yaradılmışdır. 1996-2002-ci illərdə ulu öndərin rəhbərliyi ilə ölkəmizdə “Gənclər siyasəti haqqında”, “Dövlət gənclər siyasəti haqqında”, “Bədən tərbiyəsi və idman haqqında”, “Azərbaycanda gənc istedadlara dövlət qayğısı haqqında” qanunlar qəbul olunmuş, fərman və sərəncamlar imzalanmışdır. Bütün bunlar da gənc nəslin mütəşəkkil qüvvə kimi formalaşması, sosial problemlərinin həlli və məşğulluqlarının təmin olunması baxımından mühüm əhəmiyyətə malik olmuşdur. Xalqımızın işıqlı gələcəyi naminə gənclərə böyük ümidlər bəsləyən ulu öndər Heydər Əliyev deyirdi: ***“XXI əsr gənclərin əsridir. Biz yaratdığımız, qurduğumuz müstəqil Azərbaycanı gənclərə tapşırırıq. Bizim işimizi gənclər davam etdirməlidir. Gənclərin vəzifəsi Azərbaycanın dövlət müstəqilliyini qorumaq, Azərbaycanda hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu prosesində fəal iştirak etmək, ölkəmizin iqtisadiyyatını, mədəniyyətini, elmini inkişaf etdirməkdir”.***

Bu gün ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda gənclərin potensialından istifadə olunur, onların sosial müdafiəsinin təmin edilməsi, yaradıcılıq axtarışlarının stimullaşdırılması, hərbi-vətənpərvərlik tərbiyəsinin gücləndirilməsi və sağlam həyat tərzinin təbliği istiqamətində mühüm tədbirlər həyata keçirilir. Ölkə Prezidentinin fərmanı ilə Gənclər və İdman Nazirliyi 2006-cı ildə yenidən təşkil edilmiş, gənclər siyasətinin əsas icra orqanı qarşısında yeni vəzifələr müəyyənləşdirilmişdir. Prezident İlham Əliyevin qəbul etdiyi “2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı”, “Xüsusi istedada malik olan uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı üzrə Dövlət Proqramı”, “Azərbaycan Respublikasında texniki-peşə təhsilinin inkişafı üzrə Dövlət Proqramı” gənclərin dünyanın nüfuzlu ali məktəblərində təhsil almağa göndərilməsinə, onların yaradıcılıq potensialının üzə çıxarılmasına, intellektual səviyyəsinin yüksəldilməsinə, sosial problemlərinin həllinə mühüm töhfə vermişdir. Dövlət başçısının 2011-ci il 7 iyul tarixli Sərəncamı ilə təsdiq olunmuş “Azərbaycan gəncliyi 2011-2015-ci illərdə Dövlət Proqramı” və 2015-ci il 26 yanvar tarixli Sərəncamı ilə təsdiq olunmuş “2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası” ölkəmizdə həyata keçirilən gənclər siyasətinin uğurlu davamıdır.

Ölkə Prezidenti cənab İlham Əliyev demişdir: ***“Gələcəkdə gənclər ölkəmizi idarə edəcəklər. Bunun yeganə yolu ondan ibarətdir ki, gənclər vətənpərvərlik ruhunda tərbiyə alsınlar, öz Vətəninə bağlı olsunlar, öz Vətənini sevsinlər və dövlət müstəqilliyini hər şeydən üstün tutsunlar”.***

Bu gün muxtar respublikada gənclər siyasəti uğurla həyata keçirilir, gənclərin milli ruhda tərbiyəsi diqqət mərkəzində saxlanılır. Gənclərin ictimai-siyasi, iqtisadi və mədəni həyatda fəal iştirakı, sosial problemlərinin həlli, gənclər siyasətinin bütün istiqamətləri üzrə müvafiq dövlət proqramlarının qəbul olunması, gənc istedadlara dövlət qayğısının artırılması, elm, təhsil, iqtisadiyyat, mədəniyyət, dövlət idarəçiliyi və digər sahələrdə gənclərin irəli çəkilməsi və xidmətlərinin qiymətləndirilməsi, bütövlükdə, muxtar respublikada gənclərlə iş sahəsində həyata keçirilən tədbirlərin əsasını təşkil edir. Son illər muxtar respublikada “Gənclik” Mərkəzi, kitabxanalar, mədəniyyət evləri, ali təhsil müəssisələrində yeni tədris korpusları, məktəb binaları, olimpiya-idman kompleksləri, idman mərkəzləri və digər obyektlər tikilərək və ya əsaslı təmir olunaraq istifadəyə verilmişdir.

Gənclərin asudə vaxtlarının səmərəli təşkili, yaradıcılıq potensialının üzə çıxarılması da daim diqqət mərkəzində saxlanılır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2006-cı il 30 may tarixli Sərəncamı ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasında uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı üzrə Dövlət Proqramı” bu baxımdan mühüm əhəmiyyətə malikdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov gənc nəslin əsl vətəndaş kimi yetişdirilməsi zərurətini qeyd edərək demişdir: ***“Biz gələcəyimizin formalaşması qayğısına bu gündən qalmalıyıq. Muxtar respublikamızın gələcəyi bugünkü gəncliyin təhsilə nə dərəcədə yiyələnməsindən, tariximizi, dilimizi, adət-ənənələrimizi necə öyrənməsindən, milli dəyərlərimizi hansı səviyyədə mənimsəməsindən, əsl vətəndaş kimi formalaşmasından asılıdır. Gənc nəsil vətənpərvərlik, Azərbaycançılıq və dövlətçilik prinsipləri əsasında tarixi-mədəni irsimizə, milli və ümumbəşəri dəyərlərə hörmət ruhunda tərbiyə olunmalı, onlar öz intellektual və yaradıcı potensiallarını müstəqil Azərbaycanın ictimai-siyasi, sosial-iqtisadi və mədəni inkişafına sərf etməlidirlər”.***

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikasında gənc istedadlara dövlət qayğısının artırılması haqqında” 2012-ci il 31 yanvar tarixli Fərmanı muxtar respublikamızda gənclərə göstərilən yüksək diqqət və qayğının daha bir ifadəsidir. Fərmana əsasən, Naxçıvan Muxtar Respublikası gənc istedadlarının “Qızıl kitabı” təsis olunmuş, kitaba adları yazılmış gənc istedadlar üçün təqaüdün verilməsi qaydaları təsdiq edilmişdir. Dövlət gənclər siyasətinin tərkib hissəsi kimi Ali Məclis Sədrinin 2012-ci il 29 mart tarixli Fərmanı ilə muxtar respublikada Gənclər Fondu yaradılmış, 2014-cü ilin aprel ayında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə Naxçıvan şəhərində Gənclər Mərkəzi istifadəyə verilmiş, fondun fəaliyyəti təmin olunmuşdur. Bütün bunlar gənclərin cəmiyyətin aparıcı qüvvəsinə çevrilməsi istiqamətində atılan mühüm addımlardır.

Son illər muxtar respublikanın şəhər və rayonlarında olimpiya-idman komplekslərinin, idman mərkəzlərinin, uşaq-gənclər idman və şahmat məktəblərinin, orta məktəblərdə idman zallarının və açıq idman qurğularının istifadəyə verilməsi gənc nəslin fiziki sağlamlığının qorunması və kütləvi bədən tərbiyəsinin inkişafı baxımından mühüm əhəmiyyət kəsb edir. Bütün bu imkanlardan istifadə edən gənclərimiz idman sahəsində də uğurla iştirak edir, muxtar respublikanı Azərbaycan və dünya miqyasında keçirilən idman yarışlarında və çempionatlarda layiqincə təmsil edirlər.

Muxtar respublikada həyata keçirilən dövlət gənclər siyasətinin mühüm istiqamətlərindən birini də gənclərin sosial problemlərinin həlli, xüsusilə də mənzil şəraitinin yaxşılaşdırılması təşkil edir. Bu sahədə həyata keçirilən ardıcıl tədbirlər çərçivəsində ötən il Naxçıvan şəhərində yeni yaşayış kompleksi tikilərək istifadəyə verilmişdir. Gənclərin güzəştli şərtlərlə mənzil sahibi olması yönündə işlər bu il də uğurla davam etdirilir. Hazırda Naxçıvan şəhərində 5 binadan ibarət yeni “Gənclər şəhərciyi”nin inşası davam etdirilir.

***Göründüyü kimi, bu gün Naxçıvan Muxtar Respublikasında gənclər milli-mənəvi dəyərlərimizə hörmət ruhunda tərbiyə olunur, yeni ideyaların təşəbbüskarı və dövlət idarəçiliyində aparıcı qüvvə kimi formalaşır, idman, elm, mədəniyyət, incəsənət və digər sahələrdə böyük nailiyyətlər əldə edirlər. Ən əsası isə muxtar respublika gəncləri dövlətçilik ənənələrini daim uca tutur, ulu öndər Heydər Əliyevin siyasi xəttinə sədaqət ruhunda böyüyürlər.***

***Naxçıvan Muxtar Respublikası<br>Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

# Gənclər Günü qeyd olunub

***Yeni Azərbaycan Partiyası Şərur Rayon Təşkilatında keçirilən tədbiri təşkilatın sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Əmir Babayev açıb. Yeni Azərbaycan Partiyası rayon təşkilatı Heydər Əliyev adına Gənclər Birliyinin sədri Orxan Məmmədov mövzu ilə bağlı məruzə edib.***

Qeyd olunub ki, ölkəmizin hərtərəfli inkişafı bu günün gənclərindən daha çox asılıdır. Bu, bir faktdır ki, ötən əsrin doxsanıncı illərinin əvvəllərində cəmiyyəti təhlükələrə sürükləyən siyasi-iqtisadi, mənəvi-ideoloji böhranlar üzündən respublikamızda gənclər siyasəti tamamilə unudulmuşdu. Ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra gənclər siyasəti dövlət siyasətinin mühüm istiqamətlərindən birinə çevrildi. Ümummilli liderimiz bu siyasətin əhəmiyyətini vurğulayaraq deyirdi ki, cəmiyyətin gələcək tərəqqisi bir çox cəhətdən indi gənclərimizə nəyi və necə öyrətməyimizdən asılı olacaqdır. Müstəqil respublikamıza rəhbərlik etdiyi on il müddətində ulu öndərimiz gənc nəslin fiziki-mənəvi potensialının möhkəmləndirilməsi və bu potensialdan tam şəkildə istifadə olunması üçün bir sıra mühüm tədbirlər həyata keçirib. Hakimiyyətə qayıdışından az sonra – 1993-cü ilin sentyabr ayında Milli Məclisdə gənclərlə görüşməsi, onların problemləri ilə maraqlanması ümummilli liderimizin Azərbaycan gəncliyinin cəmiyyət həyatındakı roluna verdiyi böyük önəmin, gənclərə rəğbət və qayğısının göstəricisi idi. Görkəmli dövlət xadimi Heydər Əliyev 1995-ci ilin martında respublika gəncləri ilə növbəti görüşündə də onların sağlam ruhda və əsl vətəndaşlar kimi yetişmələri üçün əlindən gələni edəcəyini bir daha bəyan etdi. 1996-cı il fevralın 2-də keçirilən Azərbaycan Gənclərinin I Forumunda isə ölkə Prezidentinin təşəbbüsü ilə hər üç ildən bir belə forumların keçirilməsi qərara alındı. Daim Azərbaycan gənclərinin qayğıkeşi və himayədarı olmuş ulu öndərin 1 fevral 1997-ci ildə imzaladığı Sərəncamla hər il fevral ayının 2-si “Gənclər Günü” kimi qeyd olunur.

Bildirilib ki, ulu öndərin başladığı strateji xətti ardıcıl və yaradıcılıqla davam etdirən Azərbaycan Prezidenti cənab İlham Əliyev gənclərə geniş meydan verilməsinə, bu təbəqənin zəruri tələbat və ehtiyaclarının ödənilməsinə xüsusi diqqət yetirir.

Vurğulanıb ki, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan muxtar respublikamızda da gənclər siyasəti uğurla həyata keçirilir. Muxtar respublika gənclərinin mükəmməl təhsil alması, mənəvi-psixoloji və fiziki cəhətdən sağlam böyüməsi, elmi-texniki yeniliklərə mükəmməl yiyələnməsi, idmanın müxtəlif növləri ilə məşğul olması, dövlət qulluğu işlərində onların potensialından səmərəli istifadə edilməsi və bu istiqamətdə həyata keçirilən digər tədbirlər gənclər siyasətinin əsasını təşkil edir. Bu diqqət və qayğının nəticəsidir ki, gənclərimiz cəmiyyətin inkişafında fəal sosial təbəqə kimi iştirak edir, mədəniyyət, elm və idman sahələrində böyük inamla irəliləyir, zəngin mədəni irsimizin qorunub saxlanması və inkişaf etdirilməsi yolunda mühüm addımlar atır, milli dəyərlərimizin yaşadılması və təbliği üçün əllərindən gələni əsirgəmirlər.

Tədbirdə rayon Gənclər və İdman İdarəsinin rəisi Ramin Dadaşov, Yeni Azərbaycan Partiyası rayon təşkilatının aparıcı təlimatçısı Mirkərim Seyidov və gənc partiya üzvü Xəyalə İsmayılova çıxış edərək müstəqil respublikamızda əsası ulu öndər tərəfindən qoyulmuş dövlət gənclər siyasətinin bəhrələrindən danışıblar.

Rayon İcra Hakimiyyəti başçısının müavini Zəhra Bayramova, Yeni Azərbaycan Partiyası rayon təşkilatı idarə heyətinin üzvləri İbrahim Hənifəzadə, Yeganə Məmmədova, Nüsrət Həsənov və Vaqif Cabbarov çıxış edərək gəncləri bayram münasibətilə təbrik ediblər.

Sonda Yeni Azərbaycan Partiyası sıralarına qəbul edilmiş bir qrup gəncə partiya vəsiqələri təqdim olunub.

**Elman MƏMMƏDOV**

***Dünən “Naxçıvan” Universitetində 2 fevral – Gənclər Günü ilə bağlı “Ümummilli lider Heydər Əliyev və Azərbaycan gəncliyi” mövzusunda diskussiya keçirilib.***

Diskussiyada universitetin tərbiyə işləri üzrə prorektoru Əli Yusifov çıxış edərək bildirib ki, Azərbaycan gənclərinin günümüzün müasir, inkişaf etmiş, yüksək intellektli aparıcı qüvvə kimi formalaşmasında dövlətimizin apardığı gənclər siyasətinin mühüm rolu vardır. Bu siyasətin banisi isə xalqımızın ümummilli lideri Heydər Əliyevdir. Ulu öndərin gənclər siyasəti əsrlər boyu xalqımızın malik olduğu milli-mənəvi dəyərlər əsasında müstəqillik, dövlətçilik və onların qorunması uğrunda mübariz ruhlu gənc nəslin yetişdirilməsindən ibarət olub. Ümummilli liderimiz həmişə gənclərimizə böyük ümidlər bəsləyir, dəfələrlə qeyd edirdi ki, Azərbaycanın gələcəyi gənclərin əlindədir.

Ölkəmizə rəhbərliyinin bütün dövrlərində ulu öndər sağlam gəncliyin, bu dövlətə sahib dura biləcək bir nəslin yetişməsində misilsiz xidmətlər göstərib. Ümummilli liderimiz gənclərin imkan və bacarıqlarını yüksək qiymətləndirir, onların problemlərinin həlli istiqamətində həyata keçirilən tədbirlərə xüsusi önəm verir, bu siyasəti müstəqil Azərbaycan dövlətinin ən mühüm fəaliyyət istiqamətlərindən biri kimi dəyərləndirirdi. Hələ ötən əsrin 70-80-ci illərində dahi rəhbər Heydər Əliyevin diqqət və qayğısı sayəsində minlərlə azərbaycanlı gənc keçmiş SSRİ-nin aparıcı ali məktəblərinə müxtəlif ixtisaslar üzrə təhsil almağa göndərilib. Məhz həmin gənclər indi müstəqil Azərbaycanın inkişafı naminə mütəxəssislər kimi fəaliyyət göstərirlər.

Diqqətə çatdırılıb ki, ümummilli liderin 1995-ci ildə irəli sürdüyü Gənclər Forumu ilə bağlı təşəbbüsündən sonra 1996-cı ildən başlayaraq Azərbaycan gənclərinin forumları keçirilib. Forumlarda ulu öndərin proqram xarakterli nitqlərində gənclərin qarşısında duran vəzifələr müəyyənləşdirilib, gənc nəslin hərtərəfli inkişafı, problemlərinin həlli sahəsində tədbirlərin görülməsi ilə əlaqədar təşkilatlar qarşısında mühüm vəzifələr qoyulub.

Diskussiyada tələbələr arasında mövzu ilə bağlı fikir mübadiləsi aparılıb, Gənclər Gününə həsr olunmuş videoçarx nümayiş etdirilib.

***“Naxçıvan” Universitetinin<br>mətbuat xidməti***

## Naxçıvan Muxtar Respublikasının Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Komissiyanın iclası keçirilmişdir

***Yanvarın 29-da Naxçıvan Muxtar Respublikasının Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Komissiyanın növbəti iclası keçirilmişdir.***

İclasda komissiyanın 2014-cü ilə aid tədbirlər planının icrası və 2015-ci il üçün tədbirlər planının təsdiq olunması barədə məsələlər müzakirə olunmuşdur.

Birinci məsələ ilə əlaqədar komissiyanın sədri Azər Zeynalov, Naxçıvan Muxtar Respublikası Daxili İşlər nazirinin müavini Qaçay Quliyev, Dövlət Gömrük Komitəsi sədrinin müavini Səhət Həbibbəyli və digərləri çıxış edərək narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı həyata keçirilmiş mübarizə tədbirlərindən danışmış, komissiyanın 2014-cü ilə aid tədbirlər planının icrası barədə ətraflı məlumat vermişlər.

Komissiyanın sədri Azər Zeynalov iclasa yekun vuraraq bildirmişdir ki, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Komissiya Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırıq və tövsiyələrini rəhbər tutmaqla gənclər arasında sağlam həyat tərzinin formalaşması və asudə vaxtın səmərəli təşkil edilməsi istiqamətində aidiyyəti dövlət orqanlarının və ictimaiyyətin səylərini əlaqələndirərək narkomaniyaya qarşı mübarizə tədbirlərini davam etdirəcəkdir.

İclasda komissiyanın 2015-ci il üçün tədbirlər planı təsdiq olunmuşdur.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Muxtar respublikada narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirləri davam etdirilir

***Naxçıvan Muxtar Respublikasının Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Komissiyanın 2014-cü il 17 yanvar tarixli iclasının qərarı ilə 2014-cü il üçün tədbirlər planı təsdiq olunmuş, icrası nəzarətdə saxlanılmış, narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı tədbirlər davam etdirilmişdir.***

Bu sahədə görülən işlərin nəticəsidir ki, 2014-cü ildə Müsadirə Edilmiş Narkotik Vasitələri, Psixotrop Maddələri və Onların Prekursorlarını Məhvetmə Komissiyası tərəfindən 19 qram 21 milliqram heroin, 42 qram 178 milliqram həşiş qatranı, 192 qram 771 milliqram tiryək, 7 kiloqram 615 qram 785 milliqram qurudulmuş marixuana, 1 kiloqram 388 qram çətənə kolu, 6 qram 871 milliqram "Metafetamin", 25 qram 54 milliqram "Metodon", ümumi çəkisi 29 qram 737 milliqram olan 513 ədəd "Fenobarbital" preparatı yandırılaraq məhv edilmişdir. Həmçinin qanunsuz dövriyyədən ümumi çəkisi 703 qram 926 milliqram olmaqla, 41 qram 65 milliqram heroin, 206 qram 431 milliqram tiryək, 382 qram 83 milliqram marixuana, 48 qram 307 milliqram həşiş, 26 qram 40 milliqram "Metadon", habelə psixotrop maddə hesab olunan 6 qram 901 milliqram "Metafetamin" və ümumi çəkisi 29 qram 737 milliqram olan 513 ədəd "Fenobarbital" həbləri aşkarlanaraq götürülmüşdür.

Narkomaniya və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində muxtar respublikanın hüquq-mühafizə orqanları tərəfindən də ardıcıl tədbirlər həyata keçirilmişdir. Belə ki, ötən il Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyi tərəfindən 5 cinayət hadisəsi və 9 inzibati fakt aşkar edilərək 6 qram 996 milliqram tiryək, 252 milliqram heroin, 7 qram 724 milliqram həşiş qatranı, 82 qram 467 milliqram qurudulmuş marixuana, 500 ədəd "Fenobarbital" qanunsuz dövriyyədən çıxarılmışdır. Həmçinin Naxçıvan Muxtar Respublikası Milli Təhlükəsizlik Nazirliyinin əməkdaşları da muxtar respublikaya qeyri-qanuni yollarla narkotik maddələrin gətirilmə kanallarının və bu işdə iştirak edən şəxslərin aşkar olunması, onların fəaliyyət dairəsinin müəyyənləşdirilməsi istiqamətində müvafiq əməliyyat tədbirləri həyata keçirmişlər. Nəticədə, 8 cinayət faktı üzrə 40 qram 813 milliqram heroin, 20 qram 451 milliqram həşiş qatranı, 168 qram 544 milliqram qurudulmuş marixuana, 6 qram 901 milliqram çəkisi olan 380 ədəd "Metafetamin" və 13 ədəd "Fenobarbital" həbləri aşkar edilərək götürülmüşdür. Naxçıvan Muxtar Respublikasının Dövlət Gömrük Komitəsi tərəfindən də narkotik vasitələrin qaçaqmalçılığına qarşı mübarizə tədbirləri gücləndirilmiş və 2014-cü ildə 3 cinayət faktı üzrə aşkar edilmiş 20 qram 132 milliqram həşiş, 191 qram 675 milliqram tiryək, 131 qram 12 milliqram qurudulmuş marixuana qanunsuz dövriyyədən çıxarılmışdır. Hesabat dövründə müvafiq orqanlardan icazə sənədi olmayan 31904 ədəd psixotrop tərkibli dərman preparatlarının muxtar respublikaya gətirilməsinin qarşısı alınmışdır.

2014-cü ildə narkomaniya ilə əlaqədar Naxçıvan Muxtar Respublikası məhkəmələrinin icraatında 16 nəfər barəsində 12 cinayət işi olmuş, cinayət işlərinə baxılaraq təqsirləndirilən şəxslər barəsində ittiham hökmü çıxarılmışdır. 4 nəfər barəsində 4 cinayət işi isə 2015-ci ilə qalıq qalmışdır. Bundan başqa, məhkəmələr tərəfindən 9 nəfər barəsində 9 inzibati xəta üzrə işə baxılmış və nəticələndirilmişdir. Hesabat dövründə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin icraatına narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi ilə bağlı apelyasiya qaydasında 8 nəfər barəsində 4 cinayət işi daxil olmuş, 3 iş baxılaraq nəticələndirilmiş, 1 iş 2015-ci ilə qalıq qalmışdır.

Narkomaniyaya qarşı mübarizə tədbirlərinin sırasında maarifləndirmə xüsusi əhəmiyyət kəsb edir. Naxçıvan Muxtar Respublikasının Təhsil, eləcə də Gənclər və İdman nazirlikləri tərəfindən bu məsələ diqqətdə saxlanılmış, zərərli vərdişlərin qarşısının alınması məqsədilə tədris müəssisələrində maarifləndirmə işləri aparılmış, müxtəlif bilik və idman yarışları təşkil edilmiş, gənclərin idman məktəblərinə və federasiyaların məşqlərinə cəlb edilməsi yolunda tədbirlər davam etdirilmişdir. Ümumiyyətlə, 2014-cü il ərzində narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə aparan orqanlar tərəfindən əsas diqqət profilaktik tədbirlərin həyata keçirilməsinə, gənclərin kütləvi idman və mədəni tədbirlərə cəlb edilməsinə yönəldilmişdir. Nəticədə, yetkinlik yaşına çatmayanlar və ya qadınlar arasında narkotiklərlə bağlı cinayət və inzibati məsuliyyətə cəlb edilən olmamış, muxtar respublikanın təhsil müəssisələrində narkotik vasitələrdən istifadə faktı aşkarlanmamışdır.

**Naxçıvan Muxtar Respublikasının Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Komissiyası**

## Duzdağ Fizioterapiya Mərkəzində körpə uşaqlar üçün yeni palatalar hazırlanır





2014-cü ildə Duzdağ Fizioterapiya Mərkəzində müalicə almaq üçün bu şəfa ocağına 4316 müraciət daxil olub. Türkiyə Cümhuriyyətindən 55, Qazaxıstandan 48, Rusiyadan 123, Tacikistandan 1, 27- si Acarıstan Muxtar Respublikasındakı aztəminatlı ailələrinin uşaqları olmaqla, Gürcüstandan 45, Avstriyadan 2, İngiltərədən 1, Ukraynadan 6 nəfər mərkəzdə müalicə alıb. Müalicəyə gətirilən uşaqların valideynləri də mərkəzin və yaxınlıqdakı beşulduzlu "Duzdağ" hotelinin imkanlarından yararlanıblar. Bəhs edilən dövrdə mərkəzdə 456 muxtar respublika sakini müalicə alıb. Onlardan 179-u Naxçıvan şəhər sakini olub.

Mərkəzin baş həkimi Ruslan Süleymanovun bildirdiyinə görə, uşaqlar 12-15, böyüklər isə 14-18 gün yer altında yaşamaqla müalicə almış olurlar. Burada ilin istənilən fəslində müalicə almaq mümkündür. Temperatur sabitdir, nisbi rütubət aşağıdır, havada zərərli qazlar yoxdur. Xəstəxana horizontal şəkildə olduğundan buraya gələn xəstələr, təxminən, 300 metr məsafəlik yolu özləri qət edirlər. Bu isə yeraltı şöbədəki havaya tədricən öyrəşmək imkanı yaradır.

Naxçıvanda havanın təmiz, iqlimin quru, günəşli günlərin sayının çox olması xəstəxanada rütubətin səviyyəsini normal saxlayır. Belə olan halda burada müalicə alan xəstələr qısa müddətdə sağala bilirlər. Xəstələr əvvəlcə 2-3 gün müddətində xəstəxana ərazisinə adaptasiya olunurlar. Bundan sonra saat 18[00]-dən səhər saat 8[00]-dək böyüklər 20-24 seans, uşaqlar isə 14-18 seans yeraltı şöbədə olurlar. Müalicə başa çatdıqdan sonra böyüklərdə 65-70 faiz, uşaqlarda isə 80-85 faiz yaxşılaşma müşahidə olunur.

Baş həkim onu da bildirdi ki, hazırda burada 300 yataq yeri mövcuddur. Ancaq artan tələbat nəzərə alınaraq mərkəzdə körpə uşaqlar üçün əlavə 50 yataqlıq palatalar qurulur. Yeni qurulan palatalar mərkəzin tibbi xidmət imkanlarını daha da artıracaq.

Qeyd edək ki, Duzdağ Fizioterapiya Mərkəzində, əsasən, allergik xəstəliklərdən, xüsusilə bronxial-astmadan əziyyət çəkənlər müalicə alırlar.

Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, dünya əhalisinin, təqribən, 10 faizi allergik xəstəliklərdən əziyyət çəkir ki, bunun da 1,5-2 faizi bronxial-astmanın payına düşür. Məlumata görə, dünyada 15 milyon nəfərə yaxın insan bronxial-astmalı xəstədir. Bronxial-astma bronxlarda müxtəlif etioloji amillərdən asılı olaraq, sekresiyanın çoxalması, bronxların selikli qişasının ödəmi, bronxların saya əzələlərinin spazmı və bu hallardan sonra boğulma tutması baş verən allergik, xroniki xəstəlikdir. Bir çox xəstəliklərin, həmçinin bronxial-astmanın müalicəsində duz şaxtası şəraitində aparılan müalicə, yəni spleoterapiya daha effektlidir.

**Səbuhi HÜSEYNOV**

*Naxçıvan Muxtar Respublikasında keyfiyyətə nəzarət infrastrukturunun inkişafı, standartlaşdırma, akkreditasiya, sertifikatlaşdırma, metrologiya, uyğunluğun qiymətləndirilməsi istiqamətləri üzrə fəaliyyətin səmərəli təşkili daim diqqət mərkəzində saxlanılır. Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi 2014-cü ildə fəaliyyətini gücləndirmiş, dövlət proqramlarının qarşıya qoyduğu vəzifələr, sessiya və müşavirələrdə verilmiş tapşırıqlar uğurla icra olunmuşdur.*

## Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi 2014-cü ili uğurla başa vurub

Komitənin müvafiq işçi qrupları tərəfindən elektrik, qaz və su sayğaclarının istismar müddətinə, məktəbli, tələbə və müəllim geyim formalarının, eləcə də məktəbli ləvazimatlarının keyfiyyət göstəricilərinə, təhsil müəssisələrinin yeməkxanalarına alınan ərzağın keyfiyyətinə, tikinti sektorunda, ticarət, ictimai iaşə, məişət və digər xidmət sahələrində texniki normativ-hüquqi aktların tələblərinə əməl olunmasına, istehlak bazarında məhsulların keyfiyyətinə nəzarət məqsədilə monitorinqlər aparılmışdır. Standartların tələblərinə uyğun olmayan 57039,05 manat dəyərində məhsul satışdan çıxarılmış, 30911,45 manat dəyərindəki məhsul məhv edilmiş, 23097,2 manat dəyərindəki məhsul təsərrüfatda yem məqsədilə aid strukturlara təhvil verilmiş, 3030,4 manat dəyərindəki məhsul isə istehsalçı və idxalçı müəssisələrə geri göndərilmişdir.

Komitənin 2014-cü il üzrə iş planına uyğun olaraq, keyfiyyətin idarə olunması istiqamətində 12 təsərrüfat subyektində dövlət nəzarəti həyata keçirilmiş, 11 təsərrüfat subyektində nöqsanlar aşkar olunaraq operativ qaydada aradan qaldırılmışdır. Bundan başqa, 425 istehsal müəssisəsində müşahidə xarakterli monitorinqlər aparılmış, 303 istehsal müəssisəsinə aşkar olunmuş nöqsanların aradan qaldırılması üçün xəbərdarlıq edilmişdir. İl ərzində muxtar respublikada unun dəmir mineral tozu ilə zənginləşdirilməsi və çörəyin çəkisi nəzarətdə saxlanılmışdır.

Zəruri təhlükəsizlik tədbirləri çərçivəsində aidiyyəti orqanlarla birlikdə qaz cihazlarının satışını həyata keçirən 27 ticarət obyektində monitorinqlər aparılmışdır. 22 ticarət obyektində uyğunluq sertifikatı və Azərbaycan dilində istifadə təlimatı olmayan, təhlükəsizlik sistemləri ilə təmin olunmayan qaz cihazları aşkar olunaraq satışı qadağan edilmişdir. Təkrar monitorinqlər zamanı 6 ticarət obyekti tərəfindən çatışmazlıqların aradan qaldırıldığı müəyyən edilmiş, 16 ticarət obyektində 208 ədəd mətbəx üçün qaz plitəsi, 95 ədəd qazla işləyən təcili su qızdırıcısı, 1 ədəd qaz sobası və 31 ədəd qaz ocağı olmaqla, cəmi 335 ədəd qaz cihazı satışdan çıxarılmışdır.

Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi keyfiyyətə nəzarət infrastrukturunun və bu sahədə texniki tənzimləmə sisteminin qabaqcıl tələblərə uyğunlaşdırılmasını, istehlakçılara təklif olunan məhsulların keyfiyyətinin müasir standartların tələblərinə cavab verməsini və əhalinin etibarlı ərzaq məhsulları ilə təmin olunmasını diqqətdə saxlamışdır. Belə ki, 2014-cü ildə 810 ədədi ərzaq, 2450 ədədi qeyri-ərzaq olmaqla, 3260 ədəd məhsula uyğunluq sertifikatı verilmişdir. 139 müəssisəyə istehsal etdiyi sabit keyfiyyətli 260 adda məhsulu AZS Milli Sertifikatlaşdırma Sisteminin "Uyğunluq nişanı" ilə nişanlamaq hüququ verilmişdir. Həmçinin standartlaşdırma fondunun zənginləşdirilməsi məqsədilə 59 ədəd yeni təsdiq olunmuş dövlət standartı, 2 ədəd dövlət standartına edilmiş dəyişiklik, 11 ədəd dövlətlərarası standart, 10 ədəd türk standartı, 1 ədəd təsnifat, dövlət qeydiyyatından keçmiş 10 ədəd texniki şərt və 2 texniki şərtə edilmiş dəyişiklik, Azərbaycan Respublikası ərazisində tətbiqinə icazə verilən 24 ədəd beynəlxalq standart, 30 ədəd Avropa standartı və 1 ədəd Rusiya Federasiyası milli standartı fonda daxil edilmiş, 6 dövlət standartı ləğv edildiyindən fonddan çıxarılmışdır.

Komitə metrologiya xidməti üzrə də fəaliyyətini gücləndirmiş, 1325 təsərrüfat subyektində 63 min 330 ədəd (12388 ədədi dövlət, 50942 ədədi qeyri-dövlət sektoru üzrə) ölçmə vasitəsi müqayisəli yoxlamadan keçirilmişdir. Bəhs olunan dövrdə komitəyə ixtira, faydalı model, sənaye nümunələri, əmtəə nişanları və coğrafi göstəricilərin mühafizəsi üzrə 133 müraciət daxil olmuşdur. Hazırda bunların ekspertizası davam etdirilir. 134 təsərrüfat subyektində istehlakçının seçmə sərbəstliyinə təsir göstərən 225 halda qanunsuz reklam üsullarından istifadə hallarının qarşısı alınmışdır. Əmtəə nişanlarının mühafizəsinə dair 67 ədəd şəhadətnamə və sənaye nümunələrinin mühafizəsinə dair 9 ədəd patent verilmişdir. 35 laboratoriyada akkreditasiya işləri aparılmış və sertifikatlar verilmişdir.

Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin kollektivi 2015-ci ildə də verilmiş tapşırıqların və qarşıya qoyulmuş vəzifələrin icrası istiqamətində səylə çalışacaq, əhalinin sağlamlığının və istehlakçıların hüquqlarının qorunması sahəsində həyata keçirilən tədbirlər davam etdiriləcəkdir.

***Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

# Şərur rayonu

## Püsyan kənd tam orta məktəbi

dünən



bu gün



## Yeni tamaşaya ictimai baxış olub

***Həmyerlimiz, şair-publisist Cavad Cavadov uşaqlar üçün bir sıra maraqlı şeir, poema, mənzum-nağıl və pyeslərin müəllifidir. M.T.Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrında müəllifin uşaqlar üçün yazdığı "Tovuzquşunun nəğmələri" pyesi əsasında hazırlanmış eyniadlı tamaşaya ictimai baxış olub.***

Tamaşada xeyirxahlıq, mərhəmət, ədalət hissləri təbliğ olunmaqla bərabər, zülmkarlıq, hiyləgərlik, xəyanət kimi mənfi keyfiyyətlər tənqid olunur. Müəllifin folklorumuzdan bəhrələnərək yazdığı bu əsərdə balaca tamaşaçılar Tovuzquşu, Maral, Şir, Tülkü, Canavar, Sağsağan, Qarğa kimi obrazlarla tanış olacaqlar. Tamaşanın məqsədi balaca tamaşaçılara nəcib duyğular aşılamaqdır. "Tovuzquşunun nəğmələri" tamaşasında şən mahnılar da uşaqların zövqünü oxşayacaq.

Tamaşadan sonra Naxçıvan Muxtar Respublikasının Mədəniyyət və Turizm naziri Sarvan İbrahimov, Xalq artistləri Kamran Quliyev, Yasəmən Ramazanova, Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva, şair Zaur Vedili, filologiya üzrə fəlsəfə doktoru Rafiq Babayev çıxış edərək fikir və rəylərini bildiriblər. Əsərin müəllifi Cavad Cavadovun qızı Lalə Cavadlı isə çıxışında atasının uşaqlar üçün yazdığı pyesinin Naxçıvan Dövlət Kukla Teatrında tamaşaya qoyulmasına görə minnətdarlığını bildirib.

Qeyd edək ki, tamaşanın bəstəkarı Əli Məmmədovdur. Səhnə əsərinin quruluşçu rəssamı Murad Babayevin səhnə tərtibatı uğurludur. Tamaşanın quruluşçu rejissoru isə Azərbaycan Respublikasının Xalq artisti Yasəmən Ramazanovadır. Tamaşada Kukla Teatrının aktyorları Əfqanə Ələsgərova, Vəsmə Quliyeva, Ulduz Süleymanova, Süleyman Süleymanov, İlham Babayev, İlqar Babayev, Səriyyə İsmayılzadə, İbad Nəbiyev rol alıblar.

**Əli RZAYEV**

## Naxçıvan Diaqnostika-Müalicə Mərkəzində könüllü qanvermə aksiyası keçirilib

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi irsi qan xəstəliklərindən əziyyət çəkən və qan köçürülməsinə ehtiyacı olan digər xəstələrin müalicəsində istifadə olunmaq üçün qanvermə aksiyalarının təşkilini davam etdirir.***

Belə aksiyalardan biri yanvarın 30-da Kəngərli Rayon Polis Şöbəsi şəxsi heyətinin iştirakı ilə Naxçıvan Diaqnostika-Müalicə Mərkəzində həyata keçirilib. Donorların müayinəsini və qan götürülməsini həyata keçirən qan bankının həkimi Məmmədəli Həsənov ölkəmizdə qan köçürülməsinə ehtiyacı olan xəstələrin müalicəsinə göstərilən dövlət qayğısından, bu sahədə həyata keçirilən layihələrdən danışıb. Qeyd olunub ki, müasir təbabətdə həkimlərin əlində çoxlu müalicə vasitələri olmasına baxmayaraq, ən ağır vəziyyətlərdə xəstələrin həyatlarının xilas edilməsi üçün əvəzsiz rol oynayan dərman donor qanıdır. Hemofiliya və talassemiya xəstələrinin müalicəsində qan komponentlərinin və preparatlarının istənilən vaxtda əlçatan olması çox vacibdir və bu, donor qanına tələbatı artırır. Müxtəlif travma və yaralanmalar, mürəkkəb cərrahi əməliyyatlar və doğuşlar zamanı qanitirmələrdə, xroniki qanazlığında, qanın irsi və qazanılmış xəstəliklərində, onkoloji xəstəliklərdə, daxili orqanların – ürək, böyrək, mədə-bağırsaq, qaraciyər və digər müxtəlif xəstəliklərdə qandan və ya qandan hazırlanmış preparatlardan geniş istifadə olunur. Qandan belə geniş istifadə edilməsi ona olan tələbatı da artırır. Belə xəstəliklərin müalicəsində qan donorluğunun, xüsusən təmənnasız donorluğun böyük əhəmiyyəti vardır. Xalqımızın donorluğa göstərdiyi rəğbət, insanpərvərlik, xeyirxahlıq və humanizmi, həmrəyliyi bu işin təşkilinə böyük kömək edir. Muxtar respublikamızda da bu istiqamətdə tədbirlər ardıcıl olaraq həyata keçirilir.

Sonra Kəngərli Rayon Polis Şöbəsinin şəxsi heyəti "Sən də bir həyat ver" devizi altında qanvermə aksiyasına qoşulub. Əvvəlcə donorlardan arterial təzyiq, hepatit, QİÇS və digər yoluxucu xəstəliklərin müəyyən edilməsi üçün qan analizləri götürülərək testdən keçirilib. Bir neçə saat davam edən aksiyada 42 nəfər könüllü olaraq qan verib. Donorlardan götürülən 19,5 litr qanın qrupları müəyyənləşdirilərək ikili və üçlü torbalarda mərkəzin qan bankına təhvil verilib. Hazırda qan bankında xəstələrə köçürülmək üçün kifayət qədər ehtiyat yaradılıb. Tələbatdan artıq donor qanından plazma hazırlanaraq qan bankında saxlanılacaqdır.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

***Qış fəsli nə dərəcədə sərt keçsə də, xalqımız onun gəlişini bayram kimi qarşılayıb, onun gəlməsi ilə bağlı müxtəlif mərasimlər icra edib. Ümumiyyətlə, qış həm də aşıq məclisləri, qadınların toxuculuq işləri ilə yaddaqalan fəsil kimi tanınıb. İnsanlar bütün yorğunluqlarını qış mövsümündə atıblar. Qış görüləcək işlərin az olması səbəbi ilə həm də bir dincəlmə və əyləncə mövsümüdür.***

Xalq təqvimi

## Təhvil-təslim dövrü

Xalqımız qış dövrünü xalq təqviminə uyğun olaraq, çillə adı ilə üç yerə bölüb. Böyük çillə 40 gün (21 dekabr-30 yanvar), kiçik çillə 20 gün (31 yanvar-19 fevral), ala çillə və ya ala çolpav çillə (boz ay da deyilir) isə bir ay (20 fevral-20 mart) davam edir. El arasında bu üç çilləni üç bacı, daha çox böyük və kiçik çillələrlə bağlı olaraq böyük və kiçik bacı adlandırırlar. El-oba arasında bu iki bacı arasında deyilmiş bir söyləmə də vardır.

**Rəvayət.** Böyük çillə ömrünü başa vurub geri qayıdanda kiçik çillə ilə qarşılaşır. Kiçik çillə böyük çillədən soruşur: "Nə etdin?" Böyük çillə cavab verir ki, tayaları yarıladım, qovurma küpəsinin başını endirdim, qalaqları sökdürdüm. Kiçik çillə deyir: "Mən gedib unluqları, ot tayalarını yox edəcəyəm, qalaqları yandırıb göyə sovuracağam, gəlinlərin əlini xəmir təknəsində donduracağam". Böyük çillə deyir: "Heç nə edə bilməyəcəksən, çünki ömrün azdır, qabağın yazdır".

Xalq arasında iki çillənin birbirini əvəz etməsi "təhvil-təslim dövrü" də adlanır. Ordubad və Culfa rayonlarında əhali qışın ən qorxulu dövrünü "cahar- cahar" adlanan dövr hesab edir ki, bu, dörd gün böyük çillədən, dörd gün isə kiçik çillədən hesab olunur. Xalq meteorologiyasına görə, böyük çillənin son dörd günü və kiçik çillənin ilk dörd günü qışın ən sərt günüdür. Culfa bölgəsindən topladığımız etnoqrafik çöl materiallarına əsasən, bu bölgədə böyük çillə qurtarıb yerini kiçik çilləyə verdiyi dövrdə ("cahar-cahar" adlanan dövr nəzərdə tutulur) "çilləkəsdi" oyunu və ya şənliyi keçirilirmiş. Oyun zamanı qardan heyvan fiqurları düzəldib onun ətrafına yığışar, şənlik edərdilər. Məqsəd qışdan qorxmamaq, qışa sinə gərməkdir.

Ümumilikdə, adamlar bir müsibət, bəla ilə üzləşdikdə ondan xilas olmaq, yaxa qurtarmaq üçün xüsusi ayin icra edərdilər ki, bu, "çilləkəsmə" adlanırdı. Kiçik çillənin şaxtalı, boranlı olmasını "kiçik çillənin soyuğu, təndirə qatar toyuğu" və ya "kiçik qardaş xovlu olar" kimi el deyimlərində də görürük:

*Kiçik çillə, vay çillə,*
*Qarlı, dumanlı çillə.*
*Gəbə, kilim toxuduq,*
*Cəhrəmiz də var, çillə.*

Deyilənə görə, kiçik çillə daxil olduğu kimi, çıxanda da havada bir dəyişiklik yaradır. Lakin kiçik çillə vədəsində onun haqqında deyərlər ki, "ömrünə bir şey qalmayıb, heç nə edə bilməz" və ya "ömrün azdır, qabağın yazdır".

Kiçik çillənin adı ilə bağlı xalqımız bir söz də qoşubdur:

*Kiçik çillə –*
*Boyu bir belə*
*Hikkəsi iri belə...*
*Gəlişi oldu hayınan,*
*Gedişi oldu vayınan.*

Ədəbiyyat materiallarına əsaslanaraq demək olar ki, Novruz bayramından əlli gün qabaq – böyük çillənin sonunda odla əlaqəli olaraq Səddə bayramı keçirilirdi. Bunu Nizami Gəncəvinin "İsgəndərnamə" poemasında da görürük.

Etnoqrafik çöl materiallarına görə, xalq təqviminə uyğun olaraq, böyük çillənin sonlarına "qurdun insana yeriklənən dövrü" də deyilmişdir. Bu da onunla əlaqədir ki, ilin bu dövründə qurd (canavar) ac qaldığı üçün insanlara da hücum edirmiş. El təqvimində qışın bərk şaxtalı günlərinə, böyük çillənin sonuna və kiçik çillənin əvvəllərinə həm də "qışın qulun (atın balası) salması" dövrü deyilir.

Araşdırmalardan məlum olub ki, Ordubadda böyük çillə ilə kiçik çillənin arasındakı "təhvil-təslim dövrü"ndə və ya böyük çillənin (ulu çillə) qurtarıb yerini kiçik çilləyə verən günü "Çoban bayramı", yaxud "Sayagəzmə" adlı mərasim təşkil edilərmiş. Mənbələrin verdiyi məlumata görə, mərasimi keçirməkdə əsas məqsəd yer ruhlarını razı salıb, döl bərəkətini artırmaq və heyvanları sağlam vəziyyətdə yaza çıxarmaq idi. Eyni zamanda bu tarix maldar üçün yeni bir ilin başlanğıcı kimi də qəbul edilirdi.

Onu da qeyd edək ki, kiçik çillənin onuncu günü, yəni fevral ayının 9-da Naxçıvanda xalq arasında "Xıdır Nəbi" adı ilə bilinən mərasim qeyd olunur.

***Asəf ORUCOV***
***AMEA Naxçıvan Bölməsinin böyük elmi işçisi, tarix üzrə fəlsəfə doktoru***

## "Zirvə" komandası intellektual oyunun qalibi oldu

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyi, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi və "Gənclərin İntellektual İnkişaf Mərkəzi" İctimai Birliyinin birgə təşkilatçılığı ilə yeniyetmələr arasında "Nuh yurdu" intellektual oyunu keçirilib. İntellektual oyunun keçirilməsində məqsəd bu cür bilik yarışlarının kütləviliyini təmin etmək, Azərbaycanın, o cümlədən Naxçıvanın zəngin milli mədəniyyətinin və tarixinin təbliğini, yeniyetmələrin intellektual səviyyəsini, dünyagörüşünü, zehni inkişafını stimullaşdırmaq, onlar arasında bilik və elmin nüfuzunu artırmaq, eləcə də asudə vaxtın səmərəli təşkili istiqamətində yeni üsullar tətbiq etməkdən ibarətdir.

Oyunda muxtar respublikanın şəhər və rayonlarından 12 komanda iştirak edib. Gərgin keçən mübarizə nəticəsində finala "Batabat", "Zirvə", "Simurq" və "İstedad" komandaları vəsiqə qazanıblar. Nəticəyə əsasən, "Zirvə" komandası ən yüksək xal toplayaraq qalib adını qazanıb. "Batabat" komandası ikinci, "İstedad" komandası isə üçüncü yerlərə layiq görülüb.

Sonda qaliblər təşkilatçılar tərəfindən diplom, fəxri fərman, kubok və hədiyyələrlə mükafatlandırılıblar.

**✍ Ceyhun MƏMMƏDOV**

## Kəngərli Rayon Təhsil Şöbəsi
## *2015-ci il üçün kotirovka elan edir*

*Dəftərxana ləvazimatlarının satın alınması.*

Kotirovka 9 fevral 2015-ci il tarixədək qəbul edilir. Sorğuda aşağı qiymət, yüksək keyfiyyət müqavilənin vaxtında yerinə yetirilməsi, texniki-iqtisadi və maliyyə imkanlarına malik olması göstəricilərinə üstünlük veriləcəkdir. Kotirovka zərfi 10 fevral 2015-ci il tarixdə saat 11[00]-də Kəngərli Rayon Təhsil Şöbəsində açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Əlaqələndirici şəxs: Amar Qasımov***
***Telefon: 548-07-32***
***Ünvan: Kəngərli Rayon Təhsil Şöbəsi, Qıvraq qəsəbəsi***

***İtmişdir***

Naxçıvan şəhəri, "İstiqlal" küçəsi 129, mənzil 73-də yaşayan Babayeva Gülbahar Nemət qızının adına olan evin 6465 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

* * *

"Gülüstan" kəndli fermer təsərrüfatının (VÖEN-0700110591) qeydiyyat sənədləri itdiyindən etibarsız sayılır.

***Bildiriş***

"Oba Sənaye Qrupu" Məhdud Məsuliyyətli Cəmiyyətinin (VÖEN-1600539781) hüquqi adı dəyişdirilərək "Oba Qrup" Məhdud Məsuliyyətli Cəmiyyətinə çevrilmişdir.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Hüseynov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 79